Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

REGİON

№ 105 (1233) 7 iyun - 8 iyun 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

# DÜŞMƏN QARŞISINDA QALADI TƏRTƏR

**"... Ölkəmiz beynəlxalq aləmdə layiqli yerini tuta bilmişdir, daxildə proseslər müsbət istiqamətdə getmişdir, islahatlar aparılmış, böyük nailiyyətlər əldə edilmişdir. Biz hamımız ulu öndərin siyasi xəttinə sadiqik, bu xətti davam etdiririk".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***

(əvvəli ötən sayımızda)

**Tərtərdə olduğumuz həmin gün ərzində tez-tez yaxın səngərlərdən eşidilən ağır çaplı silahların səsləri burdakı insanların əzmkarlığını bir daha sübut edirdi. Torpağa bağlı olan bu adamlar müəyyən bir laqeydliklə o səsləri sanki eşitmir, öz işləri ilə məşğul olurdular. Təbii ki, bu da bölgəyə qonaq gələn hər kəsi, o cümlədən də bizi həm heyrətləndirirdi, həm də sevindirirdi. Görüb və inanırdıq ki, adamların vətən, torpaq sevgisi hər şeydən üstündü.**

Bəli, ölkə prezidenti tərəfindən "Kənd təsərrüfatı ili" elan olunmuş 2015-ci ildə Tərtər rayonunda aqrar sahənin daha da inkişaf etdirilməsi üçün rayon icra hakimiyyəti başçısının rəhbərliyi altında xüsusi proqram işlənib hazırlanmışdı. Əlaqədar təşkilat və qurumların, fermer və sahibkarların da fikir və mülahizələri öz əksini tapmış həmin proqrama uyğun olaraq bu ilin birinci rübünün hesabatından da göründüyü kimi rayonda aqrar sektora daxil olan bölmələr üzrə məqsədyönlü iş davam etdirilir. Yəni bu ilin birinci rübündə rayonda kənd təsərrüfatının daha da sürətli inkişafını təmin etmək məqsədilə istehsalçılara subsidiya və yardım verilməsi, bununla yanaşı, istər istehsalçılarda, istərsə də mülkiyyət sahibi olan insanlarda kənd təsərrüfatına marağı daha da yüksəltmək məqsədilə gərəkli olan bütün tədbirlərin görülməsi öz həllini tapmışdır və proses davam etməkdədir.

Birmənalı şəkildə demək olar ki, cari ilin, yəni 2016-cı ilin bol məhsulunun bütün sahələr üzrə təminatını əldə etmək üçün rayonda istər şum, istər səpin problemləri vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilib. Faktiki olaraq bu gün Tərtər rayonunda 10854 hektar sahədə taxıl səpini aparılmışdır. Həmin səpinin vaxtında və keyfiyyətlə aparılması üçün də ölkə prezidentinin tapşırığı ilə kənd zəhmətkeşlərinə subsidiyaların verilməsi yüksək səviyyədə həyata keçirilmişdir. Yəni cari ildə Tərtər rayonunda dövlət büdcəsindən 1650 nəfərə, yəni kənd təsərrüfatı məhsulu istehsal edən fermerə, fərdi vətəndaşa 215384 manat məbləğində yardım göstərilmişdir. Bu isə adamları daha da ruhlandırmış və nəticədə Tərtərdə bu ilin yazı üçün 2428 hektar yazlıq bitkilərin əkini təmin olunmuşdur.



Rəqəmlərdən də göründüyü kimi ölkə başçısı tərəfindən elan edilmiş 2015-ci ilin "Kənd təsərrüfatı ili" özünü doğrultdu. Burda bir məqamı da xatırlatmaq yerinə düşər ki, Tərtər rayonunda təkcə taxıl və digər dənli bitkilərin əkini yox, həm də heyvandarlıq sahəsinin də inkişafına insanlarda maraq yaratmaq və onların bu sahədən daha yüksək gəlirlər əldə etməsini təmin etmək üçün müvafiq addımlar atılmış, problemlərin aradan qaldırılması təmin olunmuşdur. Əgər illər arasında müqayisə aparsaq, onda görərik ki, 2015-ci illə müqayisədə bu il iribuynuzlu mal-qaranın sayı 428 baş, qoyun və keçilərin sayı ilə təqribən 1600 baş artmışdır. Təbii ki, bu da istehsalçıya öz məhsulunu daha bol və keyfiyyətli şəkildə həm yerli bazara, həm də iri şəhərlərin bazarına çıxarmaq imkanı vermişdir. Məlum olduğu kimi, kənd rayonlarının ölkə paytaxtında keçirilən yarmarkalarında təmsil olunmaq imkanı həm kənddə yaşayanların öz məhsullarını realizə etmək, büdcələrini artırmaq, həm də şəhər sakinlərinin yerli və keyfiyyətli ərzaq məhsulları ilə təmin olunmaq imkanını ortaya qoymasında yarmarkaların müstəsna rolu var. Bax elə Tərtər rayonunda da istehsal olunan məhsulların təqribən 86 tonu Bakı şəhərindəki yarmarkalarda realizə olunmuşdu. Bunun özü artıq rayonda kənd təsərrüfatı məhsullarının istehsal həcminin artımından xəbər verir.

Bir faktı diqqətdə saxlamaq, yəqin ki, oxucu üçün də maraqlı olar. Belə ki, Tərtər rayonu Qarabağ problemi yaranan gündən ciddi və zəruri bir məsələnin həlli ilə üz-üzə qalıb. Bu da rayon sakinlərinin, xüsusilə təsərrüfat adamlarının suya olan ehtiyacıdı. Məlumdur ki, işğalçı Ermənistan və onun məkrli siyasəti zaman-zaman tərtərlilərin suya olan tələbatının daha da qabarması üçün hər cür şərəfsizliklərə imza atır. Xüsusilə yay aylarında rayona suyun verilməsi, çaylardan istifadə olunması həddindən artıq çətinləşib. Bu problemi ortadan qaldırmaq üçün ölkə rəhbərliyi demək olar ki, ardıcıl və davamlı surətdə addımlar atır. Yəni rayon ərazisində bu gün artıq yeraltı sulardan, yəni subartezianların gücündən daha çox istifdə olunur. Əgər rəqəmlərlə ifadə etsək, hazırda Tərtər rayonu ərazisində mövcud olan 461 ədəd subartezian quyularından 454-ü tam işlək vəziyyətdədi. Bu gün Tərtər rayonunda kənd təsərrüfatı ilə yanaşı, təmir, tikinti, abadlıq işləri də sürətlə aparılır. Yaxşı işləməyi bacaran tərtərlilərin yaxşı da dincəlmək, istirahət etmək hüquqları da həmişə qorunub. Həmin fikrə əsaslanan rayon rəhbərliyi bu gün Tərtər çayı sahilində ərazisi təqribən 3 hektara yaxın olan yeni istirahət parkının salınması üçün kompleks işlər görür. Demək olar ki, ayrılmış ərazi artıq müvafiq məqsəd üçün bir növü tam əmək meydanına çevrilib. Burada həm yaşıllaşdırma, həm gərəkli avadanlıqların qurulması və s. işlər üçün hər şey nəzarət altındadı. Üstəlik, rayonun əsas prospektlərindən olan və Ulu Öndərin adını daşıyan prospektdə yüksək gərginlikli hava xəttinin yeraltı çəkilişi üçün də nəzərdə tutulmuş iş tam yekunlaşdırılmışdır.

**Yəni SİP kabellərindən istifadə edən elektriklər bu məsələni çözməklə həm prospektin daimi işıqlandırılmasını, həm də enerji təminatında təhlükəsizlik məsələlərini bu üsulla müəyyən qədər aradan qaldıra bilmişdilər. İlin bu yaz çağında Tərtər şəhərində Azərbaycanın tanınmış simalarından olan Məmməd Əsədov və Tofiq İsmayılovun adını daşıyan küçələrdə yüksək keyfiyyətli təmir-bərpa işləri uğurla davam etdirilir.**

(Ardı var)

***Əbülfət MƏDƏTOĞLU***



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ